*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 153-160* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.153*

# ÇAĞDAŞ ƏRDƏBİL ƏDƏBİ MÜHİTİ

**Sadiyyə Xanlarova**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Azərbaycan.
E-mail: saadiyakhanlarova@gmail.com

**Annotasiya.** Klassiklərimiz daim sənət və ədəbiyyatın vəzifəsini, hər şeydən əvvəl, həyatı, varlığı düzgün göstərməsində görürdü. Daim tarixi hadisələr fonunda yaranmış və inkişaf etmiş Güney Azərbaycan ədəbiyyatının son əsrlərdə əsas mövzularından biri fars və rus hökmdarlarının haqsızlığı, eyni zamanda işğalçı siyasəti nəticəsində ikiyə bölünmüş Azərbaycanın hicran, ayrılıq, həsrət yarası olmuşdur. Şübhəsiz ki, artıq iki əsrə yaxındır damarlarından azərbaycanlı qanı axan hər bir soydaşımızın qəlbini sızladan bu mövzu ərdəbilli şairlərin də daim bədii yaradıcılığının ana xəttini təşkil etmişdir. Çağdaş Ərdəbil ədəbi mühiti ədiblərinin şeirə, sənətə münasibəti ideal dərəcədə təmiz və yüksəkdir. Bu şairlərin etiqadına görə, sənət həyatı düzgün göstərməlidir, varlığın güzgüsü olmalıdır. Onların nəzərincə vətəni, xalqı böyük ürəklə sevmək, xalqın azadlığı və tərəqqisi üçün çalışmaq hər bir şairin vicdani borcudur. Lakin bütün güneyli və quzeyli şairlərimizin ümumi bir dərdi – ikiyə bölünmüş vətən dərdi olduğu kimi, Ərdəbil ədəbi mühitində yetişmiş şairlərdən də bu çox ağır yüklü dərd yan keçməmişdir.
Azərbaycan ədəbiyyatının ən parlaq tərkib hissəsi olan Ərdəbil ədəbi mühiti heç bir zaman öz parıltısını itirməmiş, əksinə, get-gedə daha güclü parıltı ilə bərq vurmağa başlamış və daim həqiqətən də Azərbaycan xalqının ruhunun aynası kimi bütün bəşəriyyət qarşısında öz fitri istedadını, eyni zamanda əxlaqını, ədəb-ərkanını, humanizmini, səxavətini, xeyirxahlığını, ən başlıcası isə tolerantlığını nümayiş etdirmişdir və etdirməkdədir.
**Açar sözlər:** ədəbi mühit, şair, şeir, poeziya, bayatı, vətən həsrəti

**Məqalə tarixçəsi:** göndərilib – 02.06.2023; qəbul edilib – 16.06.2023

# CONTEMPORARY ARDABIL LITERARY ENVIRONMENT

**Sadiyye Khanlarova**
Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS. Azerbaijan.
E-mail: saadiyakhanlarova@gmail.com

**Abstract.** Our classics considered that the task of art and literature is, first of all, to correctly show life and existence. One of the main topics of South Azerbaijani literature that created and developed against the background of historical events in recent centuries was wound of separation and longing of Azerbaijan divided into two as a result of the injustice and occupier policy of Persian and Russian rulers. This content that has been the heart-wrenching issue of every person with Azerbaijani blood in his veins for nearly 2 centuries was the main line of artistic creativity of Arabic speaking poets. The attitude of the man of letters to the art is ideally pure and high. According to the belief of the poets, the art should show life accurately and should be the mirror of existence. It is the conscientious mission of every poet to love the homeland with a big heart and work for the freedom and progress of the people. The pain of homeland that was the common

sorrow of all Southern and Northern poets was also the sorrow of poets who grew up in the literary environment of Ardabil.
The literary environment of Ardabil, a part of Azerbaijani literature has never lost its shine, but gradually has begun to shine even more strongly and always really demonstrated his talent, morals, manners, humanity, generosity, kindness, and most importantly, his tolerance as the spirit of the Azerbaijani people.
**Keywords:** literary environment, poet, poem, poetry, bayati, homesickness

**Article history:** received – 02.06.2023; accepted − 16.06.2023

## Giriş / *Introduction*

Azərbaycanda ədəbiyyat qədim oğuz tayfalarının çox-çox qədim zamanlardan indiki Azərbaycan torpaqlarında məskən saldığı dövrlərdən mövcud olmuşdur. Əgər biz qədim mixi yazılarına nəzər yetirsək, o cümlədən Qərbi Azərbaycandakı İrəvan ərazisində qaya üstündəki yazılara baxsaq, onda Azərbaycanda şeir nümunələrinin artıq altı min il yarım qabaqkı bir dövrdə qamış üzərinə köçürülməsinin şahidi olarıq. Bununla da belə qənaətə gəlmək olar ki, Azərbaycanda folklor, şifahi xalq ədəbiyyatının, yəni ağız ədəbiyyatının altı min il yarımdan da çox yaşı var. Hamıya da məlumdur ki, ədəbiyyat xalqın ruhunun aynasıdır. Bu da heç kəsdən gizli deyil ki, Azərbaycan xalqı zatən şeirə yüksək qiymət verən, şeir dinləyən, şeir sevən, daha doğrusu, şair bir xalqdır. Azərbaycan xalqının bir xalq kimi, ümumiyyətlə, poeziya vurğunu olması isə onun çox qədim bir mədəniyyətə, qədim bir tarixə malik olduğunu bəyan edir. Məlum məsələdir ki, qəlbi şeirlə döyünən bir xalq heç bir zaman təcavüzkar, qəddar, zalım, işğalçı ola bilməz. Artıq bütün dünyaya bəllidir ki, muğamı və poeziyanı öz həyatının mənası hesab edən Azərbaycan xalqı məhz bu kimi xüsusiyyətlərinə görə, ərazisi kifayət qədər böyük olan Qafqazın və İranın say cəhətdən başqa xalqlardan xeyli yüksəkdə duran əbədi sakinləridir. Və bu göstəricilər də məhz Azərbaycan xalqının istər Qafqazın, istərsə də İranın əsl sahibləri olduğuna işarə edir. Təkcə onu qeyd etmək kifayətdir ki, hal-hazırda İranda və Azərbaycanda yaşayan azərbaycanlıları sayı 45 milyondur. Bu isə özlərini İranın ağası hesab edən farsların sayından iki dəfə artıqdır. Bunu da qeyd etmək yerinə düşər ki, Qafqaz və İranda azərbaycanlıların sayca başqa xalqlardan qat-qat çox olması onun ədəbiyyatının çox qədim köklərə bağlı olmağıyla yanaşı, daha zəngin və daha rəngarəng olduğunu göstərir.

## Əsas hissə / *Main Part*

Hamıya məlumdur ki, istər Qafqazda, istərsə də İranda azərbaycanlıların yaşadığı ərazilər keçmiş zamanlarda Azərbaycan adlanmasa da, cürbəcür dövlətlər adlanmışlar və bu dövlətlərdə artıq çox-çox qədimlərdən dövlətçilik bacarığı, qabiliyyəti olduğu üçün dövlət başçıları daim elmin, mədəniyyətin, o cümlədən ədəbiyyatın inkişafı üçün əllərindən gələni əsirgəməmiş, azərbaycanlıların yaşadığı hər bir ərazidə kitabxanalar, mədrəsələr, eyni zamanda elm və tədris ocaqları inşa etdirmişlər.

İndi artıq uzun illərdir ki, ürək ağrısı ilə Cənubi Azərbaycan adlandırdığımız ərazidə isə bütün bunlar özünü daha qabarıq şəkildə büruzə vermiş, əsasən, orta əsrlərdən etibarən Təbriz ədəbi mühiti, Xoy ədəbi mühiti, Ərdəbil ədəbi mühiti əsrlər boyu söz sərrafları yetişdirmiş və ümumi Azərbaycan ədəbiyyatı xəzinəsinə dəyərli gövhərlər bəxş etmişdir. Minlərlə “Təbrizi” təxəllüsü ilə yazıb-yaradan sənətkarların bədii irsini misal gətirmək kifayətdir ki, Cənubi Azərbaycanda şeirin, sənətin nə qədər inkişaf etdiyini və bəşər ədəbiyyatı tarixinə adı qızıl hərflərlə yazılan gövhərlər hədiyyə etdiyi bəyan olsun. Hal-hazırda bütün dünyada, o cümlədən Qərbdə və ABŞ-da əvəzolunmaz bir sənətkar kimi qəbul olunan Mövlanə Cəlaləddin Ruminin özünə ustad seçdiyi Mövlanə Şəms Təbrizi-

nin bütün bəşər övladı üçün nə qədər dəyərli və gərəkli gövhərlər miras qoyduğunu hamı yaxşı bilir.

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatından söhbət açanda Təbriz ədəbi mühitindən danışmaq, təhlillər aparmaq, araşdırmalar ərsəyə gətirmək üçün, şübhəsiz ki, bir insan ömrü və yaxud bir alimin, hətta bir neçə alimin yüzlərlə tədqiqatları yenə də bu mühitin yaratdığı xəzinənin ləllərinin yükünü çəkib qurtara bilməz. Lakin Cənubi Azərbaycanda Şəms Təbrizini, Saib Təbrizini, Xətib Təbrizini, Qətran Təbrizini yetirən "Təbriz ədəbi mühiti"ndən əlavə, yuxarıda qeyd olunduğu kimi, "Xoy ədəbi mühiti", eyni zamanda Şah İsmayıl Xətaini, Bəzmi Ərdəbilini, Zikrini, Arif Ərdəbilini, Səlami Ərdəbilini, Səmturu Ərdəbilini, Sədi Ərdəbilini, Salim Ərdəbilini, Rağib Ərdəbilini, Nuri Ərdəbilini, Nizaməddin Ərdəbilini, Müstövfi Ərdəbilini, Cəmaləddin Ərdəbilini, Cəmaləddin Əbdülqənini, Fərdi Ərdəbilini, Məhəmməd Həkim Ərdəbilini, Məhvi Mövlanə Molla Əbdüləlini, Yəqub Əbülhəsən ibn Musa Ərdəbilini, Yəqub Ərdəbilini, İsmayıl ibn Əhməd ibn Məhəmməd Bədrini, İlahi Həkim Ərdəbilini, İlahi Ərdəbilini, Varisini, Bürhan Ərdəbilini, Bəzmini, Bəqaini, Abid Ərdəbilini, Abdulla Ərdəbilini, Nazim Ərdəbilini və yüzlərlə başqa sənətkarları yetişdirən Ərdəbil ədəbi mühiti Cahan sərgisinə qiyməti heç bir şeylə ölçülməyəcək cəvahirlər bəxş etmişdir [7, s.45].

Bir şəhər kimi təməli təxminən 1500 il bundan qabaq qoyulmuş Ərdəbil şəhərinin adının mənası, qədim mənbələrə görə, "Müqəddəs şəhər" deməkdir. Bir vaxtlar Salarilər, Sacilər və Rəvvadilər dövlətlərinin paytaxtı olmuş Ərdəbil şəhərində dövlətçiliyin əsasını təşkil edən elm, mədəniyyət, eyni zamanda ədəbiyyat çox qədim dövrlərdən inkişaf yolu götürərək zəmanəmizə doğru ləyaqətli addımlarla irəliləmişdir və şübhəsiz ki, Azərbaycan ədəbiyyatının ən parlaq gövhərlərindən olan Ərdəbil ədəbi mühiti Azərbaycan xalqının ruhunun aynası kimi bütün bəşəriyyət qarşısında öz fitri istedadını, eyni zamanda əxlaqını, ədəb-ərkanını, humanizmini, səxavətini, xeyirxahlığını, ən başlıcası isə tolirantlığını nümayiş etdirmişdir və etdirməkdədir. Təsadüfü deyildir ki, 1921-ci ildə Bakıda doğulmuş, lakin 1938-ci ildə, on yeddi yaşında ikən ailəsi ilə birgə Ərdəbil şəhərinə köçmüş Balaş Azəroğlu məhz Ərdəbil ədəbi mühitində bir şair kimi yetişib o taylı-bu taylı Azərbaycanın ən sevimli və tanınmış sənətkarlarından birinə çevrilmişdir. Ərdəbil ədəbi mühitinin bir parçası olan sənətkarlar şəhəri Astarada dünyaya göz açmış və sənət-şeir bünövrəsini buranın sənət ab-havası ilə hörmüş Söhrab Tahir də o taylı-bu taylı şeir qəhrəmanlarından birinə çevrilmişdir. Çox məhşur şair Əli Tudənin yaradıcılığında Ərdəbil ədəbi mühitinin nə qədər böyük rol oynadığını da bura əlavə etsək, Ərdəbil ədəbi mühitinin nə qədər qüdrətli bir ədəbiyyat məkanı olduğunu görərik. Təsadüfü deyil ki, bu ədəbi mühit uzun əsrlər boyu olduqca qüdrətli sənətkarlar yetişdirdiyi kimi, çağdaş Ərdəbil ədəbi mühiti, yəni 21-ci əsrdə fəaliyyət göstərən ərdəbilli şairlər öz sələflərinin zəngin ənənəsini ləyaqətlə davam etdirirlər. Bu şairlər hansı mövzuda yazırlarsa yazsınlar, şair duyğuları, əxlaqi-etik məziyyətləri sözün canına hopur:

*Bilmirəm haralısan,*
*Hicrandan yaralısan,*
*Gözlərin deyir ancaq,*
*Elindən aralısan..*

*Bu şəhərə qar gəlir,*
*Dünya mənə dar gəlir,*
*Öz doğma torpağımda,*
*Qürbət mənə ar gəlir.*

*Araz qəmli dolanır,*
*Axar suyu bulanır,*
*Onu öylə gördükcə,*
*Elin gözü sulanır..* [1, s.23]

*(Məlihə Əzizpur)*

Klassiklərimiz daim sənət və ədəbiyyatın vəzifəsini, hər şeydən əvvəl, həyatı, varlığı düzgün göstərməsində görürdü. Daim tarixi hadisələr fonunda yaranmış və inkişaf etmiş Güney Azərbaycan ədəbiyyatının son əsrlərdə əsas mövzularından biri fars və rus hökmdarlarının haqsızlığı, eyni zamanda işğalçı siyasəti nəticəsində ikiyə bölünmüş Azərbaycanın hicran, ayrılıq, həsrət yarası olmuşdur. Şübhəsiz ki, artıq iki əsrə yaxındır damarlarından azərbaycanlı qanı axan hər bir azərbaycanlının qəlbini sızla-

dan bu mövzu ərdəbilli şairlərin də daim bədii yaradıcılığının ana xəttini təşkil etmişdir. Məhz buna görə də Ərdəbil ədəbi mühitində yetişən hər bir şair öz poeziya çələnginin əksər çiçəklərini bu mövzuya həsr etmişlər və etməkdədirlər:

*Demə dərdsiz, qəmsizəm,*
*Vətəndə vətənsizəm,*
*Nə cığıram, nə izəm,*
*Tale belə gətirdi.*

*Araz sərhədim oldu,*
*Sağalmaz dərdim oldu,*
*Gör hara yurdum oldu,*
*Tale belə gətirdi.* [2, s.35]

*(Məmmədhəsən Qəmbərli)*

Məlum məsələdir ki, klassik Azərbaycan poeziyasını əruz vəzninin inkişafı əsasında təhlil etmək lazım gəlir, çünki klassik Azərbaycan poeziyası bilavasitə Şərq-İslam ədəbiyyatının tərkib hissəsi olduğu üçün onu əruzssuz təsvir etmək mümkün deyildir. Bu baxımdan əvvəlcə ərəb ədəbiyyatında yaranmış, sonra fars ədəbiyyatına daxil olmuş, bir qədər sonra isə türk xalqlarının poeziyasının əsas vəzninə çevrilmiş əruz vəzni Ərdəbil ədəbi mühitinin poetik ahənginin aparıcı qüvvəsinə çevrilmişdir. Azərbaycan klassik ədəbiyyatında xüsusi çəkiyə malik olan qəzəl janrını isə əruz vəzni olmadan təsəvvür etmək mümkün deyildir, çünki məlum məsələdir ki, bizim bütün klassiklərimiz öz qəzəllərini bilavasitə əruzun cürbəcür bəhrlərində qələmə almışlar. Bu da hamıya məlumdur ki, dahi Şəhriyar da öz möhtəşəm əsərlərinin əksəriyyətini əruz vəzninin bəhrlərində qələmə almışdır. İstər iyirminci əsrin son qırx ilində, istərsə də iyirmi birinci əsrdə yaşayıb-yaradan Güney Azərbaycan şairlərinin hər biri böyük Şəhriyarın poeziyasının ədəbi təsir dairəsindən kənarda qalmamışdır. Bu dövr ərzində hər bir şairlik bacarığı olan kəsin yaradıcılığında Şəhriyar nəfəsi, Şəhriyar dili duyulmaqdadır. Söz yox ki, əsərlərini xalqın dilində, sadə, rəvan, aydın bir şəkildə yaradan, eyni zamanda poetik fiqurlardan, təşbihlərdən, təkrirlərdən, istiarələrdən, cinaslardan çox peşəkarlıqla və məharətlə istifadə edən zəmanəmizin poeziya günəşi Şəhriyarın olduqca zəngin bədii irsi nəinki Güney Azərbaycanda və Quzey Azərbaycanda, eyni zamanda Türkiyədə, İraq türkmənləri arasında olduqca geniş yayılmışdır. Türkiyədə Xeyrəddin Dökdəmir, Zeynalabidin Makasi, Fəxri Unan, Verdi Kanqılıc, Aydil Erol, Ali Korkut Akbaş, Hüseyn Pərviz, Servet Gursanhan, Tuncer Gülənsoy, Nihat Yücəl, Mustafa Kayabek və s. kimi, İraq türkmanlarından Əbdüllətif Bəndəroğlu, Səlahəttin Naciolğlu, Səlahəttin Abdullah, Hüsen Əli Mübarək, Mehdi Bayatoğlu, İsmayıl Sərt Türkman və s. şairlər həm Şəhriyarı mədh edib, həm "Heydərbabaya salam" mənzuməsinə nəzirələr, həm də ustad şairin ölümü ilə bağlı vida, xatirə şeirləri yazmışlar. Lakin böyük Şəhriyarı özlərinə birinci ustad seçən güneyli şairlərin böyük qismi, bəlkə də hamısı Şəhriyarın əsərlərini oxuyandan, onun bənzərsiz şeiriyyəti ilə tanış olandan sonra şair olmaq arzusuna düşərək yazıb-yaratmağa başlamışlar. Ancaq bunu da qeyd etmək lazımdır ki, Şəhriyar Güney Azərbaycanda sevildiyi qədər, Quzey Azərbaycanda sevildiyi kimi, Azərbaycamnın qəzəl şairi, gözəl şairi Əliağa Vahid də, Quzey Azərbaycanda sevildiyi qədər, Güney Azərbaycanda sevilmişdir. Bu baxımdan Ərdəbil ədəbi mühitinin yetişdirməsi Muğanın Germi şəhərinin Tülün kəndində anadan olmuş, həm dahi Şəhriyardan, həm də artıq uzun illərdir qəzəlləri o taylı-bu taylı Azərbaycan xanəndələrinin dilinin əzbərinə çevrilmiş Vahiddən bəhrələnən İbrahim Zahidin yaradıcılığının əsas qolunu təşkil edən əruz vəzninin bir çox bəhrlərində yaratdığı qəzəllər olduqca təqdirəlayiqdir:

*Sevirəm dəhrində canan səni mən can qədri,*
*Yer ilən göz qədəri, aləmi imkan qədəri.*

*Dözürəm həsrətinin dərdinə hey sızlayıram,*
*Tökürəm göz yaşımı hər gecə ümman qədəri.*
[6, s.19]

Məlum olduğu kimi, o taylı-bu taylı Azərbaycanda istər Ə.Vahidə, istərsə də Şəhriyara nəzirə yazanlar çox olmuşdur. Çağdaş Güney Azərbaycan şairlərindən Ə.Vahidə nəzirə yazanlardan biri də İbrahim Zahiddir. Ümumiyyətlə, qəzəl janrının incəliklərini ustad sənətkarlardan öyrənən İbrahim Zahid Ə.Vahiddən başqa, Azərbaycanın məhşur qəzəlxan-şairi Se-

yidağaya da nəzirələr yazmışdır. Bu da sənət aləmində Azərbaycanın tamamilə bölünməz olduğunu nümayiş etdirən amillərdən biridir. Şübhəsiz ki, qanı bir, canı bir, soyu-kökü bir millətin vətənini iki yerə bölməklə onun tarixini, mədəniyyətini, ədəbiyyatını və bütün yüksək mənəvi keyfiyyətlərini heç zaman sındırmaq olmaz. Güney Azərbaycanda M.Ə.Sabirin, Ə.Vahidin, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, Quzey Azərbaycanda isə Şəhriyarın, Səməd Behrənginin, Həbib Sahirin nə qədər sevildiyini misal gətirmək kifayətdir ki, bu millətin, bu xalqın bölünməz olduğu bir daha bəyan olsun.

Yuxarıda qeyd olunduğu kimi, o taylı-bu taylı Azərbaycanda Şəhriyara nəzirə yazanlar çox olmuşdur. Lakin Güneydə bunların sayı Quzeydəkindən bir az da artıq olmuşdur. Belə ki, Güney Azərbaycanda onlarla məhşur şair Şəhriyara nəzirə yazmışdır. Məmmədhüseyn Səhhah Cənnətməqam, Cabbarbəy Bağçaban, Hüseynqulu Coşqun, Əli Təbrizi, Əli Azəri, Fəthi Atəşbəyli və başqaları Şəhriyara nəzirə yazmışlar. Bu isə şübhəsiz ki, Şəhriyar sənətinə, Şəhriyar şəxsiyyətinə tükənməz sevgidən irəli gəlir.

Böyük Şəhriyara olan bu sevgi bütün Azərbaycan şairlərinin qəlbində yuva saldığı kimi, Ərdəbil ədəbi mühitinin yetişdirdiyi sənətkarların da ruhunda silinməz iz salmışdır. 1976-cı ildə Ərdəbil şəhərində anadan olmuş Əbdülrəsul Salehoğlu (Rəsuli) "Şəhriyara salam" şeirində ustad şairə öz dərin sevgisini bildirməklə yanaşı, öz poetik təfəkkürünün işığı ilə ustadın dünya şöhrətli poeması, xalq həyatının güzgüsü "Heydərbabaya salam" poemasının parıltısından işıq alaraq, Şəhriyarın namus-qeyrət, ismət, abır-həya, mənəviyyət obrazı kimi seçib salam verdiyi Heydərbabanı, olduqca mükəmməl şəkildə, poetik lövhələrlə dahi Şəhriyarın özü ilə əvəz etmiş və bir Azərbaycan vətəndaşı kimi onu ağrıdan problemləri, acıları Şəhriyara şikayət formasında söyləmişdir:

*Şəhriyarım, ildrımlar şaxmayır,*
*Sellər, sular qaynamayır, axmayır,*
*Qızlar gəlib heç bir yana baxmayır,*
*Ayrılıqlar salıb bizi çöllərə,*
*Yel aparmır salamları ellərə.*

*Şəhriyarım, Heydərbaba ağlayır,*
*Kəklikləri qanadların bağlayır,*
*Bağçaların dərd orağı dağlayır,*
*Sən gedibsən dərdin mənə qalandı,*
*Səndən sonra qəm qəm üstə qalandı..*

*Şəhriyarım, şənlikləri atmışam,*
*Səndən sonra yaman günə çatmışam,*
*Şadlıq ölüb, qəm gülünə batmışam,*
*Qəza-qədər salıb bizi qəmlərə,*
*Bundan sonra kimlər əkə, kim dərə?*

*Şəhriyarım, bizdə qonaq qalmadın,*
*Keçdi ömür, yol Vətənə salmadın,*
*Solan gülü bir qucağa almadın,*
*Yaxşı dedin: "döngələr var, dönüm var,*
*İtkinlik var, ayrılıq var, ölüm var".* [7, s.55]

Muğanlı şairə Lalə Cavanşirin 32 yaşı var. O, çox erkən yaşlarından şeir yazmağa başlamışdır. Gənc olmasına baxmayaraq, Lalənin yaradıcılığı məndəricə ilə formanın, bədii metodla dünyagörüşünün, vətəndaşlıq duyğuları ilə estetik zövqün vəhdətinə nümunə olacaq bitkin bir yaradıcılıqdır. Fəlsəfi fikir olduqca poetik formada onun əsərlərinin ana xəttini təşkil edir. Şübhəsiz ki, bu, hələ gənc olan bir şairə üçün olduqca yüksək bir sənət göstəricisidir. Onun şeirlərindən təkcə birini göstərmək kifayətdir ki, deyilənlərin sübutuna ehtiyac qalmasın:

*Dayanan dayansın, biz dayanmırıq,*
*Bizi ucaltmağa səsləyir göylər,*
*Alışıb kül olmaq üçün yanmırıq,*
*Bizi od olmağa səsləyir göylər.*

*Bizim həyatımız Günəşə, aya,*
*Varlığımız bir sevdaya bağlanıb,*
*Məhəbbət əlçatmaz yüksək bir qaya,*
*Həyatımız bu qayaya bağlanıb.* [4, s.68]

Həqiqət duyğusu çağdaş Ərdəbil ədəbi mühitinin şairlərinin ən gözəl cəhətlərindən biridir. Onlar daim gördüklərini yazır və onların yaradıcılığının məndəricəsini ümumxalq tərəqqisi və azadlığı təşkil edir. Xalqın xoşbəxtliyi fikri bu yaradıcılığın əsasında durur. Bundan əlavə, bu şairlər Azərbaycan təbiətinin gözəlliyini də

olduqca poetik mənzərələrlə insanın gözü önündə canlandıra bilirlər. 1964-cü ildə Ərdəbildə doğulub boya-başa çatmış Qurban Ənsari isə bütün bu amillərə nikbinlik notları qatmağı, eyni zamanda Azərbaycan xalqının igid, basılmaz, qəhrəman bir xalq olduğunu da peşəkarlıqla ifadə edə bilir. O, yarandığı zamandan bəri qəhrəmanlar məskəni olan Təbrizin bütün ağrı-acılara, haqsızlıqlara baxmayaraq, heç vaxt ağlayacağına, haqsızlığa üsyan olaraq bir gün ya Qoca Oğuzun, ya da Dədə Qorqudun oyanacağını bədii lövhələrlə bəyan edir və Azərbaycanın düşmənlərinə, Azərbaycanı sevməyənlərə “Ağlama” şeiri ilə olduqca tutarlı bir cavab verir:

*Ey əlvan çiçəklər, ey güllü bağlar,*
*Ucaboy çinarlar, barlı budaqlar,*
*Xəzanlı payızı yaz qabaqlamaz,*
*Aslanlar oylağı Təbriz ağlamaz.*

*Əgər öz-özünə sönməzsə bu od,*
*Yer göyü qapsayar qəzəbli bulud,*
*Ya Oğuz oyanar, ya Dədə Qorqud,*
*Qoyunlar ayağın qurd ayaqlamaz,*
*Aslanlar oylağı Təbriz ağlamaz.* [6, s.76]

Çağdaş Ərdəbil ədəbi mühiti şairlərinin şeirə, sənətə münasibəti ideal dərəcədə təmiz və yüksəkdir. Bu şairlərin etiqadınca sənət həyatı düzgün göstərməlidir, varlığın güzgüsü olmalıdır. Onların nəzərincə, vətəni, xalqı böyük ürəklə sevmək, onların azadlığı və tərəqqisi üçün çalışmaq hər bir şairin vicdani borcudur. Lakin bütün güneyli və quzeyli şairlərimizin ümumi bir dərdi, ikiyə bölünmüş vətən dərdi olduğu kimi, Ərdəbil ədəbi mühitində yetişmiş şairlərdən də bu çox ağır yüklü dərd yan keçməmişdir. Şübhəsiz ki, onların hər birinin yaradıcılığında bu mövzu əsas yer tutur. 1961-ci ildə Muğanda anadan olmuş Bəxtiyar Muğanoğlu bu dərdi zəngin və bədii lövhələrlə bu cür ifadə eləyir:

*Bir elin qırx milyon insanlarının,*
*On kələf tikan-sim kəsib arasın,*
*Görən Azərbaycan qəhrəmanlarının,*
*Kim gəlib deyəcək dərdə çarəsin.*

*Oğul, burdan ora üç saat yoldur,*
*Adam bir övnəyə gedər, qayıdar,*
*Amma bu üç saat yüz yetmiş oldu,*
*Düzülüb dal-dala həftələr, aylar.*

*Bu nə hikmətdir ki, övnəlik yola,*
*Bir qərindir çarə edə bilmirik,*
*İnsan indi çıxır ulduza, aya,*
*Biz üç saat yolu gedə bilmirik.* [6, s.33]

Çağdaş Ərdəbil ədəbi mühiti şairlərinin əsərləri böyük inandırıcılığa və təsir qüvvəsinə malikdir. “Ürək yanmasa, gözdən yaş çıxmaz”, – deyiblər. Bu sözdə böyük məna və həqiqət var. Bu, nəinki insan əməlinin səmimiliyini bəyan edir, eyni zamanda sənət əsərlərinin təsir qüvvəsini müəyyən edən bir meyardır. Biz o adamlara inanırıq ki, onların hərəkəti ürəkdən olur, biz o sənət əsərlərini sevirik ki, orada ürəyin istiliyi var. Şübhəsiz ki, özü yanmayan, başqasını da yandıra bilməz. Bu baxımdan şairə Səhər Ərdəbilinin əsərlərinə nəzər yetirəndə biz bunların yanar bir ürəkdən çıxdığını görürük:

*Kədərli könlümə odlu nəvalardan səda bəslə,*
*Məni çənli, uca dağlar dalından söz ilə səslə,*
*Dolubdur söz ilə sazın, nədir saz ilə pərvazın?*
*Nəvalardan gümandır ki, qadınlıq bəsləyir sazın?*
*Ətəli nağı (dəvə – S.X.) gedən səmtə,*
*Qərəbdən (sevinc – S.X.) yol kəsir sazın..*
[3, s.12]

Çağdaş Ərdəbil ədəbi mühiti şairlərində dolğun məzmunla kamil bədii forma pozulmaz vəhdət təşkil edir. Onların tərənnüm etdiyi eşq insanı yüksəldən, insan təbiətinin nəcib və müqəddəs meyillərini ifadə edən fəlsəfi, mənalı, təmiz bir eşqdir. Əziz Cabbarlı Sazlının şeirləri gözümüzün önündə ülvi eşqin əsrarəngiz tablolarını çəkir:

*Bir acı xatirə canımı yaxdı,*
*Ürəkdən ah çəkib ağladım bayaq,*
*Payız axşamıydı ayrıldı məndən,*
*Ağacdan yarpaqlar ayrılan sayaq.*
*Əlləri əlimdə öpdüm üzündən,*
*Qayıtdı arxaya, gükdü-dayandı,*
*Birdən elə doldu, elə kövrəldi,*
*Şöləli ahından ulduzlar yandı.*
*Ayrlmaq istədim, ürəyim susdu,*

*Deyirəm kor olsun gözü həsrətin,*
*Ayrılıq nə məndən, nə ondan oldu,*
*Bu acı taleyə mən nə deyəydim?.* [6, s.77]

Çağdaş Ərdəbil ədəbi mühiti şairləri öz şeirlərində ikiyə parçalanmış vətənin kədər və facisəsini bədii və canlı lövhələrlə əks etdirdikləri kimi, Azərbaycan xalqının şərəfini, şöhrətini, milli iftixarını olduqca məharətlə ifadə eləyə bilirlər. Doğma xalqının həyat görüşü, fəlsəfəsi, əxlaqı, sövqü, təsəvvür və arzuları Sədyar Eloğlunun əsərlərində yüksək bədii obrazlarla əks olunmuşdur. "Mərd elimiz var" şerində Sədyar Eloğlu Azərbaycan xalqının düşmənlərinə xalqımızın qəhrəman bir xalq olduğunu, bir gün hər şeyə görə qisas alacağını poetik lövhələrlə göstərir:

*Yadlar bunu bilsin ki, şanlı elimiz var,*
*Al qanlı Araz tək hələ daşqın selimiz var.*

*"Zeynəb paşamız", qoç "Nəbimiz" ölsə də bilsin,*
*"Eyvaz" kimi minlərlə ərimiz, min "dəlimiz" var.*

*Analar doğacaqdır bizə minlərlə Koroğlu,*
*Səttar kimi meydanda döyüşkən kəlimiz var.*

*Qaflantımızın qarlı başı olsa da çiskin,*
*Araz nisgilinə son qoyacaq yenilməz elimiz var.*
[7, s.22]

## Nəticə / *Conclusion*

Tarix boyu Ərdəbil ədəbi mühiti şairləri zəmanələrinə açıq gözlə baxmış, xalqın həyatını diqqətlə izləmiş, heç bir ədalətsizliyə biganə qalmayaraq, Uca Yaradanın onlara bəxş etdiyi işıqlı təfəkkürlərinin süzgəcindən keçirərək, bədii fəhmin işığında gördüklərini qələmə alıb Azərbaycan ədəbiyyatını bəşəri ideallarla, dərin insani ehtiraslarla zənginləşdirmişlər. Çağdaş Ərdəbil ədəbi mühiti sənətkarları da yuxarıda qeyd olunduğu kimi, öz sələflərinin bu haqqsevər yolunu ləyaqətlə davam etdirərək, sözə, sənətə nəhayətsiz dərəcədə gözəl və mənalı cəvahirlər xəzinəsi kimi baxaraq, sənət mehrabını özləri üçün ən əziz və müqəddəs miras bilib, daim öz füsunkar əsərləri ilə bizi heyran edib, ürəyimizi titrədirlər. Biz inanırıq ki, Ərdəbil ədəbi mühiti həmişə olduğu kimi, yenə də Azərbaycan ədəbiyyatının qüdrətli qollarından biri olaraq qalacaqdır.

## Ədəbiyyat / *References*


1. Bakı-Təbriz. Dünya azərbaycanlılarının dərgisi. № 2. 2006-cı il.
2. Bakı-Təbriz. Dünya azərbaycanlılarının dərgisi. № 11. 2008-ci il.
3. Cavad Heyət. Azərbaycan ədəbiyyatına bir baxış. – Bakı: Yazıçı, 1993-cü il.
4. Quliyev Elman. "Şəhriyar poeziyası və milli təkamül". – Bakı: Elm, 2004-cü il.
5. Məhəmmədəli Tərbiyət. Danişməndani Azərbaycan (Görkəmli elm və sənət adamları). – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1987-ci il.
6. İbrahim Zahid. Qəzəllər. – Bakı, 2006-cı il.
7. "Parçalanmış vətənin harayı" (Həsrət şeirləri və bayatıları). Tərtib edəni: Əkrəm Rəhimli (Bije). – Bakı: Nurlar, 2007-ci il.

## СОВРЕМЕННАЯ ЛИТЕРАТУРНАЯ СРЕДА АРДЕБИЛЯ

**Садия Ханларова**
Институт рукописей имени Мохаммеда Физули НАНА. Азербайджан.
E-mail: saadiyakhanlarova@gmail.com

**Резюме.** Назначение искусства и литературы наши классики всегда видели, прежде всего, в правдивом изображении жизни и бытия. В последние века одной из главных тем литературы Южного Азербайджана, постоянно создававшейся и развивающейся на фоне исторических событий, была несправедливость персидских и русских правителей, и в то же время, осталась раной тоска разлуки после разделения Азербайджана надвое в результате захватнической политики. Несомненно, вот уже около двух веков эта тема, которая у каждого из наших соотечественников отзывается болью в сердце, постоянно составляет главную направленность в художественном творчестве ардебильских поэтов. Взгляды поэтов современной ардебильской литературной среды на поэзию и искусство идеально чисты и высоки. Согласно их убеждениям, искусство должно правдиво отражать жизнь, быть зеркалом бытия. По их мнению, долг чести каждого поэта это всем сердцем любить родину, свой народ, трудиться во имя свободы и процветания народа. Но общая боль для всех поэтов Северного и Южного Азербайджана – родина, разделённая на две части, – не прошла мимо и легла тяжёлым грузом на сердца поэтов ардебильской литературной среды.

Ардебильская литературная среда, как яркая составная часть азербайджанской литературы, никогда не теряла своей красочности, а наоборот, постепенно ещё более озарялась светом, и, являясь духовным зеркалом азербайджанского народа, всегда демонстрировала всему человечеству свой природный талант, гуманизм, щедрость, доброту, нравственность, благожелательность и, самое главное, – толерантность, что продолжается и поныне.

**Ключевые слова:** литературная среда, поэт, стих, поэзия, баяты, тоска по родине